Xalq qəzeti.- 2022.- 6 noyabr.- S. 5

**8 Noyabr Zəfər Günü Azərbaycanın çoxəsrlik tarixində müstəsna yeri olan son dərəcə böyük gündür. Milli qürur və iftixar günümüzdür. 8 Noyabr həmçinin xalqımızın özünə inamının, milli vətənpərvərlik duyğularının təntənə tarixidir. Bu zəfər bizə milli mənliyimizi qaytardı. Biz azərbaycanlılar başımızı dik tutmağı öyrəndik.**

# Milli qürur və iftixar günümüz

Hesab edirəm ki, 8 Noyabr tarixi həm də Vətənimiz Azərbaycanın qarşısında tamamilə yeni bir mərhələ açdı. Elə bir mərhələ ki, onda Azərbaycanın müzəffər dövlət imici var. Dünya nə qədər dəyişsə də, ictimai-siyasi formasiyalar bir-birini əvəz etsə də, mütərəqqi fikir və düşüncələr, humanizm prinsipləri cəmiyyətlərin yaşam tərzinə hər nə qədər hakim kəsilsə də, insanlıq gücün əsiri olmaqdan qurtulmur. Gücə, əzmə hörmət və dəyər aktuallığını qorumaqdadır və bu, dövlətlərə münasibətin başlıca faktoru rolunda çıxış edir. 8 Noyabr Azərbaycanın gücünün və qüdrətinin bəyan edildiyi tarixdir. Bu mənada ölkəmizin qarşısında yeni üfüqlərin açıldığı da şübhəsizdir.

İki il öncə qəhrəman ordumuzun misilsiz rəşadəti ilə Şuşamız düşmən tapdağından qurtuldu. Məhz Şuşanın işğaldan azad edildiyi günün Zəfər Günü kimi qeyd etməyimiz Uca Tanrının xalqımıza böyük ərməğanıdır. Çünki Şuşa bizim milli mənlik simvolumuzdur. Bu şəhər milli poeziyamızın, ümumən ədəbiyyatımızın nəhəng ruh mənbəyidir. O ədəbiyyatın ki, 30 ilə yaxın müddətdə Qarabağ nisgilini, acısını yaşatmaqla bərabər, xalqımızın mübarizə əzmini diri tutdu, bir an belə imkan vermədi ki, bu əzm, inam sarsılsın. Buna görə də Zəfər Günü həm də elə poeziyamızın, nəsrimizin, bütövlükdə, ədəbiyyatımızın bayramıdır.

8 Noyabr, eyni zamanda, müdrikliyin, uzaqgörənliyin, səbrin, diplomatik bacarıq və səriştənin zəfəridir. Mən bu barədə Şuşada Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilmiş Vaqif Poeziya Günlərinin açılış mərasimindəki çıxışımda da bildirmişdim. Tədbirdə ölkə Prezidenti cənab İlham Əliyev də iştirak edirdi. Mən onda dedim ki, dövlət başçımız diplomatik qələbəni, təbliğat qələbəsini özü təkbaşına qazandı. Bu, həqiqətən



də, belədir. 8 Noyabr Zəfəri cənab İlham Əliyevin uzun illərdir davam edən diplomatik müstəvidəki gərgin əməyinin, zəhmətinin bəhrəsidir. Biz bir xalq olaraq zəfərin qazanılmasında ordumuza, əsgərlərimizə minnətdarıq, şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyirik. Amma bizim müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə ayrıca minnətdarlıq borcumuz var.

Cənab Əliyev 44 günlük müharibə zamanı nümayiş etdirdiyi qətiyyət və iradə ilə, dünyanın müxtəlif tanınmış media orqanlarına verdiyi çoxsaylı müsahibələrlə Qarabağ, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizənin əsl ideoloquna, haqq carçısına çevrildi. Biz müharibə günlərində onun əsl xalq lideri olduğunu bir daha, özü də olduqca parlaq təzahür formaları ilə gördük. Buna görə də qətiyyətlə deyə bilərəm ki, 8 Noyabr Zəfəri həm də İlham Əliyevin siyasi xadim kimi özünün qazandığı zəfərdir. Bu zəfər onun adını Azərbaycanın şanlı tarixinə əbədi həkk etdi.

**Anar,**
**Azərbaycan Yazıçılar Birliyinin sədri,**
**Xalq yazıçısı**